# 0-dan başlayanlar üçün HR MÜTƏXƏSSİS

## TƏLİM PROQRAMI

## Ümumi məlumat

**Təlimin adı:** 0-dan başlayanlar üçün HR mütəxəssis təlimi
**Təlimin məqsədi:** Bu təlimin məqsədi HR sahəsində təcrübəsi olmayan və ya yeni başlayan iştirakçılara insan resurslarının idarə edilməsinin əsaslarını sistemli və praktik şəkildə öyrətmək, onları işə qəbul, adaptasiya, sənədləşmə və əmək qanunvericiliyi kimi baza mövzular üzrə ilkin HR fəaliyyətinə hazır vəziyyətə gətirməkdir.
**Müddət:** 34 saat
**Format:** Əyani, praktiki tapşırıqlar və real nümunələr, qrup müzakirələri, HR LAB sessiyaları və tətbiqi çalışmalar, modulsonu ölçmə və geribildirim.
**Tədris təcrübəsi:** 8 il (80+ sessiya)
**Məzun sayı:** 1500+
**Modul sayı:** 4
**Təlimçi sayı:** 4
**Qiymətləndirmə:** Təlim sonu imtahan
**Təlimin sonunda təqdim edilən nəticə sənəd:** Sertifikat (iştirakçı və ya müvəffəqiyyət)

## Təlimin üstünlükləri

- HR sahəsinə **0-dan başlayanlar üçün sistemli və mərhələli proqram**
- İntensiv təlim proqramı (təlim 2 aya yekunlaşır)
- Nəzəri biliklə yanaşı **praktiki tapşırıqlar və real nümunələr**
- **HR LAB sessiyaları** ilə öyrənilənlərin tətbiqi
- İşə qəbul, adaptasiya, sənədləşmə və əmək qanunvericiliyi üzrə **baza bacarıqların formalaşdırılması**
- Sahə üzrə **peşəkar və praktik təcrübəyə malik təlimçi heyəti**
- CV hazırlanması, LinkedIn profilinin formalaşdırılması və müsahibələrə hazırlıq üzrə karyera dəstəyi
- İmtahan və nəticə əsaslı qiymətləndirmə
- Bu təlim üzrə 8 illik formalaşmış praktik təcrübə
- Etibar və etimad edilən sertifikat

## Təlimin auditoriyası

- HR sahəsində karyeraya **0-dan başlamaq istəyən şəxslər**
- Fərqli ixtisas və sahələr üzrə təhsil almış, lakin **HR sahəsinə keçid etmək istəyənlər**
- Yeni məzunlar
- HR sahəsində **baza bilik və bacarıqlarını formalaşdırmaq** istəyən şəxslər
- HR üzrə təcrübəsi olmayan və ya **başlanğıc səviyyəsində olan** iştirakçılar

## Təlimi bitirdikdən sonra iştirakçı:

- İnsan Resurslarının İdarə Edilməsinin **əsas anlayış və funksiyaları ilə tanış olacaq**
- HR modulları üzrə **icraedici səviyyədə tapşırıqları** yerinə yetirə biləcək
- HR sənədləşməsi və əmək qanunvericiliyi üzrə **baza biliklər əldə edəcək**
- HR sahəsində **başlanğıc səviyyədə fəaliyyət üçün zəruri bilik və bacarıqlara yiyələnəcək**
- Əmək və Məşğulluq Altsistemi **(ƏMAS) platforması üzrə praktiki işləmə bacarığı əldə edəcək**
- **Müsahibə proseslərinə daha hazırlıqlı olacaq**

## Təlim proqramı

### I Modul: İnsan Resurslarının İdarə Edilməsi (12 saat)

**Təlimçi: Aysel Şıxəliyeva https://www.linkedin.com/in/aysel-shikhaliyeva-b3b530129/**

İnsan resurslarının idarə edilməsi nədir?
İnsan resurslarının idarə edilməsinin modulları və onlar arasında əlaqə
İnsan resurslarının planlaşdırılması
Davranış kodeksi, nizam-intizam qaydaları
İş analizi
İşəqəbul prosesində işəgötürən brendinin rolu
Vakansiyaların idarə olunması, namizədlərin axtarışı, CV screening
Müsahibələrin aparılması, müsahibə növləri, namizədlərin qiymətləndirilməsi
Adaptasiya planlarının hazırlanması və izlənməsi
Performansın idarə olunması anlayışı
Performans idarə olunmasının mərhələləri
Qiymətləndirmə metodları
Təlim ehtiyaclarının müəyyən edilməsi
Təlim planlarının hazırlanması, öyrənmə məqsədləri
Təlimlərin keçirilməsi
Təlimlərin effektivliyinin qiymətləndirilməsi
Karyera və inkişaf
Davamçıların yetişdirilməsi
Fərdi inkişaf planı
Motivasiya nəzəriyyələri
Mükafatlandırma

### II Modul: I HR lab (4 saat)

**Mentor: Ayşən Cabaylı https://www.linkedin.com/in/ayshan-jabay-938850158/**

I HR Lab çərçivəsində iştirakçılar “İnsan Resurslarının İdarə Edilməsi” modulunda öyrəndikləri bilikləri praktik tətbiq edir və işə qəbul prosesini real ssenari üzərindən icra edirlər.

**1. Nəzəri biliklərin təkrarı**
Əsas HR anlayışlarının sual-cavab formatında möhkəmləndirilməsi
İşə qəbul prosesinin mərhələlərinin real nümunələr üzərindən müzakirəsi

**2. Vakansiya və elan hazırlığı**
İştirakçılar:
Vakansiya tələb formasını hazırlayır
Elan mətnini tərtib edir
Uyğun axtarış kanallarını müəyyənləşdirir

**3. Müsahibə prosesi – Rol oyunu (Role Play)**
HR rolu ilə müsahibənin təşkili və aparılması
Strukturlaşdırılmış və davranışa əsaslanan sualların tətbiqi
Namizədin qiymətləndirilməsi

**4. Müsahibənin təhlili və geribildirim**
Aparılan müsahibələrin müzakirəsi
Güclü və zəif tərəflərin analiz edilməsi
HR baxış bucağından düzgün sual vermə və qiymətləndirmə texnikası
Eyni zamanda, müsahibə zamanı iştirakçılara namizəd perspektivindən də tövsiyələr verilir:
Suallara real iş bazarına uyğun, strukturlaşdırılmış cavab vermə üsulları
Özünü təqdim etmə və güclü tərəfləri düzgün ifadə etmə
Çətin suallara peşəkar yanaşma

**5. Karyera və CV dəstəyi**
Özünüqiymətləndirmə və potensial analizi sualları
CV hazırlanması üzrə praktiki tövsiyələr
CV şablonlarının təqdim edilməsi
Hazırlanmış CV-lərə təkrar baxış və fərdi tövsiyə

Bu labın məqsədi iştirakçının həm HR kimi müsahibə aparma, həm də namizəd kimi müsahibədə düzgün çıxış etmə bacarığını paralel şəkildə inkişaf etdirməkdir.

**III Modul: İnsan Resurslarının İdarə Edilməsi (12 saat)**
**Təlimçi: Əziz Əzimov https://www.linkedin.com/in/aziz-azimov-82b039177/**

Azərbaycan Respublikasının əmək qanunvericiliyi haqqında məlumat
Əmək münasibətlərinin tərəfləri
Əmək müqaviləsinin məzmunu, quruluşu və əsas şərtləri
Sınaq müddəti, sınaq müddəti müəyyən edilməyən hallar
Əmək müqaviləsinə dəyişikliklərin edilməsi, başqa işə keçirmə
Əmək şəraitinin şərtləri və onların dəyişdirilməsi
Əvəzçilik üzrə əmək müqaviləsi
Başqa işçinin əmək funksiyasının icrası
İş və istirahət vaxtı anlayışı
İş vaxtının normaları (tam, qısaldılmış, natamam)

İş vaxtının cəmlənmiş uçotu
Gecə vaxtı işin müddəti
İş vaxtından artıq iş
İstirahət və iş günü hesab edilməyən günlərdə işə cəlb olunma
Məzuniyyətin növləri və onların rəsmiləşdirilməsi
Əmək məzuniyyətinin hissələrə bölünməsi və məzuniyyətdən geriçağırma qaydası
Əmək müqaviləsinə xitam verilməsinin əsasları və xitamın sənədləşdirilməsi
İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qaydası
İşəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin əsasları
Müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası
Tərəflərin iradəsindən asılı olmayan hallarda əmək müqaviləsinə xitam verilməsinin əsasları
Əmək müqaviləsində nəzərdə tutulan hallarda ona xitam verilməsinin tənzimlənməsi
Əmək müqaviləsinə xitam verilərkən işçilərin təminatları
Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi qaydaları

**III Modul: II HR lab (4 saat)**
**Mentor: Ayşən Cabaylı**

II HR Lab proqramı çərçivəsində iştirakçılar ƏMAS platformasında real şirkət hesabı üzərindən işləyir və əsas HR əməliyyatlarını praktik şəkildə icra edirlər. Məqsəd yalnız sistemin funksiyalarını göstərmək deyil, iştirakçının sistemdə HR əməliyyatlarını müstəqil və düzgün şəkildə yerinə yetirə biləcək səviyyəyə çatdırılmasıdır.

**1. Struktur əməliyyatları (Real sistem üzərində tətbiq)**
**İştirakçılar ƏMAS platformasında aşağıdakı struktur əməliyyatlarını praktik şəkildə icra edirlər:**
Ştat vahidlərinin yaradılması
Ştat vahidinin təsdiqi prosesi
Vakant ştatın vakansiya bankına göndərilməsi
Mövcud strukturda dəyişikliklərin edilməsi

**2. Yeni işçi üçün əmək müqaviləsinin hazırlanması**
**İştirakçılar:**
İşçi məlumatlarını sistemə daxil edir
Əmək müqaviləsi şərtlərini düzgün şəkildə qeyd edir
Müqavilə bildirişini formalaşdırır
Müqavilənin sistem üzrə təsdiq mərhələlərini icra edir

**3. Əmək müqaviləsinə dəyişikliklərin edilməsi**
**İştirakçılar real müqavilələr üzərindən aşağıdakı dəyişiklikləri praktik şəkildə həyata keçirirlər:**
Vəzifə dəyişiklikləri
Əməkhaqqı dəyişiklikləri
Struktur dəyişiklikləri

**4. Əmrlər üzrə əməliyyatlar (xitam və məzuniyyət)**
**İştirakçılar sistem üzərində:**
Xitam əmrlərini formalaşdırır
Məzuniyyət əmrlərini formalaşdırır və təsdiq prosesini icra edir

Bu modulun sonunda iştirakçı ƏMAS platformasında əsas HR əməliyyatlarını müstəqil və düzgün şəkildə icra edə biləcək praktik bacarıq qazanır.

**IV Modul: Uğurlu Karyera; CV, Müsahibə, Şəxsi Brendinq (3 saat, onlayn)**
**Mentor: Abid Səmədov https://www.linkedin.com/in/abidsamadov/**

Karyera planlaması necə edilməlidir?
Uğurlu karyera qurmağın mərhələləri və sirrləri.
Müasir dövrün tələblərinə cavab verən CV-ni necə hazırlamalıyıq, özümüzü CV-də düzgün təqdim etmənin qaydaları.
Şəxsi brendinqin uğurlu karyerada rolu və əhəmiyyəti.
Özümüzü necə mövqeləndirməli, şəxsi brendimizi necə formalaşdırmalıyıq?